AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI

Avtomatik identifikasiya

ŞTRİXKODLAŞDIRMA

ÜMUMİ MÜDDƏALAR.

GS1 SİSTEMİNDƏ ƏMTƏƏ NÖMRƏLƏRİNİN FORMALAŞMASI, AYRILMASI QEYDİYYATI, TƏTBİQİ VƏ NƏZARƏT QAYDALARI.

AZS ___ 202_

LAYİHƏ

Rəsmi nəşr

Azərbaycan Standartlaşdırma İnstitutu
BAKI 202_

MÜQƏDDİMƏ

1. «GS1 Azerbaijan» MMC tərəfindən işlənilib və təqdim edilib.
2. Azərbaycan Standartlaşdırma İnstitutunun «___»_____202_-ci il tarixli _____ saylı əmri ilə TƏSTİQ EDİLİB və QÜVVƏYƏ MİNİB.
3. Dövrü yoxlama müddəti 5 ildir.

LAYİHƏ

Bu standart *Azərbaycan Standartlaşdırma İnstitutunun* icazəsi olmadan tam və ya hissə-hissə yenidən çap oluna, çoxaldıla və yayıla bilməz.

Mündəricat

1. TƏTBİQ SAHƏSİ ..... – 4
2. NORMATİV İSTİNADLAR ..... – 5
3. TERMİNLƏR VƏ TƏRİFLƏR ..... – 5
4. ÜMUMİ QAYDALAR ..... – 7
5. GS1 SİSTEMİNDƏ ƏMTƏƏ NÖMRƏLƏRİNİN FORMALAŞMASI, AYRILMASI, QEYDİYYATI, TƏTBİQİ VƏ NƏZARƏT QAYDALARI ..... – 8
5.1.GS1 sistemində əmtəə nömrələrinin formalaşması Qaydaları ..... – 8
5.2. GS1 sistemində əmtəə nömrələrinin ayrılma Qaydaları ..... – 9
5.3. GS1 sistemində əmtəə nömrələrinin qeydiyyatı Qaydaları ..... – 10
5.4. GS1 sistemində əmtəə nömrələrinə nəzarət Qaydaları ..... – 10
5.4.1. GTIN-lərin və ştrixkod simvollarının istifadəsinə nəzar ..... – 10
5.4.2. GTIN-in ləğvi ..... – 10
5.5. GS1 sistemində əmtəə nömrələrinin tətbiqi Qaydala ..... –11
5.5.1.Ştrixkodun vurulma keyfiyyəti ..... – 11
5.5.2. Ştrixkodun çapı (vurulması) ..... – 12
6. Ştrixkod Simvolunun Ümumi konstruksiyası ..... – 12
Əlavə A. GS1 üzvlərinin ölkə prefiksinin 01.05.2021 tarixinə olan siyahısı ..... – 13
Əlavə B. Nominal ölçüləri simvolunun təsivi ..... – 17
Əlavə C. EAN-8 və EAN-13 ştrixkodlarının standart-nominal ölçüləri ..... – 19

LAYİHƏ

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI

Avtomatik identifikasiya
ŞTRİXKODLAŞDIRMA
Ümumi müddəalar.
GS1 sistemində
əmtəə nömrələrinin formalaşması,
ayrılması, qeydiyyatı, tətbiqi və nəzarət qaydaları

Автоматическая идентификация
ШТРИХОВОЕ КОДИРОВАНИЕ
Общие положения.
Порядок формирования, присвоения,
регистрации, нанесения и контроля товарных номеров
в системе GS1

Automatic identification.
BAR CODING
Basic principles.
The order of formation, assignment, registration,
printing and control the trade item numbers in GS1 system

LAYİHƏ

Tətbiq edilmə tarixi «___» 202_-ci il

1. TƏTBİQ SAHƏSİ

Bu standart ştrixkod əsasında obyektlərin uçotu üçün avtomatik identifikasiya sistemini tətbiq edən texnologiyalara şamil edilir.

Standart müəyyən edir:

- kodlaşdırma obyektlərinə aid olan ümumi tələblər və kodlaşdırma obyektlərinin ştrixkod simvolu şəklində göstərilmə prinsipləri;
- beynəlxalq əmtəə nömrələnməsi sistemini istifadə edərək məhsullarını ştrixkod simvolları ilə markalayan sahibkarlıq fəaliyyəti subyektlərinin (bundan sonra müəssisə) qeydiyyatının ümumi qaydaları;
- müəssisə və onların bölmələri üçün beynəlxalq qlobal prefikslərin verilməsi və yerləşmə nömrələrin formalaşması qaydaları;
- hər növ əmtəə məhsulu üçün ştrixkodun rəqəmsal əhəmiyyətinin formalaşma qaydaları;
- ştrixkod simvolunun tərtibatı və tətbiqinin ümumi prinsipləri.

Standartın qaydaları GS1 beynəlxalq əmtəə nömrələnməsi sisteminin tələblərinə uyğundur.

Bu standartın tələbləri Azərbaycan Respulikasında mülkiyyət formasından asılı olmayaraq fəaliyyət göstərən müəssisələr, idarələr və təşkilatlar, həmçinin sahibkarlıq fəaliyyəti subyektləri üçün məcburidir.

2. NORMATİV İSTİNADLAR

Bu standartda aşağıdakılara istinad edilmişdir:

- GS1 Baş spesfikasiyası (GS1 General Specifications version 21.0.1)

3. TERMİNLƏR VƏ TƏRİFLƏR

3.1. Bu standartda istifadə olunan terminlər, onların tərifləri və ştrixkodların işarələnməsi GS1 sisteminin Baş Spesifikasiyası ilə müəyyən edilmişdir.

Aralıq (Ştrixkodun simvolu): Ştrixkodun simvolunda ştrixlərin əks etdirmə əmsalına nisbətən daha yüksək əksetdirmə əmsalı olan ştrixlərin arasındakı sahədir.

Atribut, parametr: Obyektin xüsusiyyətlərinin müəyyənləşdirilməsi

Avtomatik identifikasiya: Xüsusi texniki qurğu vasitələri ilə eyniləşdirilmiş obyektin avtomatik ayırd edilməsi üsulu.

Dəyişkənölçülü məhsullar: Bir və ya bir neçə parametrlərinin müəyyənləşdirmə obyekti kimi dəyərləri tədarük zəncirində dəyişə bilən hər hansı bir məhsuldur.

Əmtəə vahidi: Bütün parametrlərinin dəyərləri bir identifikasiya obyekti olaraq tədarük zəncirində sabit qalan hər hansı bir məhsuldur.

Qeyd - Malların (məhsulların) vahidi tək, qrup və ya nəqliyyat paketindəki məhsul ola bilər.

Əmtəənin qablaşdırılması: Kompüter sisteminin ştrixkod oxuyucusundan keçən əmtəə vahididir.

Əmtəənin qrup qablaşması: Kompüter sisteminin ştrixkod oxuyucusundan keçən, birləşdirilmiş vahid paketlər qrupu olan ayrı bir əmtəə vahididir.

Əmtəənin logistik qablaşması: Müəyyən sayda tək və ya qrup paketləri olan və kompüter sisteminin ştrixkod oxuyucusundan keçməsi nəzərdə tutulmayan ayrı bir nəqliyyat və ya saxlama vahididir.

GS1 beynəlxalq Assosiasiyası: Fəaliyyəti GS1 sistem standartlarının hazırlanması və tətbiqinə yönəlmiş beynəlxalq bir təşkilatdır.

GS1 Milli təşkilatı: Müvafiq ölkədə (müəyyən bir ərazidə) GS1 sisteminin fəaliyyətinin təşkilini təmin edən Beynəlxalq GS1 Assosiasiyasının üzvüdür.

LAYİHƏ

GS1 Azerbaijan Cəmiyyəti GS1 beynəlxalq Assosiasiyasının tam hüquqlu üzvüdür.

GS1 Prefiksi: GS1 Beynəlxalq Assosiasiyası tərəfindən hər bir milli təşkilat üçün ayrılan rəqəmlərdir.

GS1 sisteminin İstifadəçisi: Müraciəti əsasında GS1 məlumat bazasına daxil olan və GS1 sisteminin istifadəçisinin qeydiyyat nömrəsini - GCP və GLN əldə edən hüquqi və ya fərdi sahibkar.

GS1 sisteminin standartları: Uyğunlaşdırılmış prosesləri təmin etmək üçün Beynəlxalq GS1 Assosiasiyası tərəfindən qəbul edilmiş standartlar, metodologiyalar və daxili qaydalar; identifikasiya obyektləri haqqında məlumatların avtomatik işlənməsi prosesində elektron qarşılıqlı təsir və iş prosedurlarının sadələşdirilməsi məqsədi ilə GS1 sisteminin qlobal identifikatorlarının təyin edilməsi və istifadəsi.

GS1 Azerbaijan Əmtəə Nömrələmə Depozitariyası: GS1 sisteminin standartlarının və milli sənədlərin tələbləri daxil olmaqla GS1 sisteminin identifikasiya obyektləri olan İstifadəçilərin istehsalçı və ya tədarükçü kimi çıxış etdikləri əmtəələrə aid məlumatları müvafiq qaydada toplayan, saxlayan, mühafizəsini təmin edən informasiya mənbələri və texnologiyaları toplusudur.

GCP (Global Company Prefix)- İstifadəçinin Qlobal Prefiksi: GS1 Milli təşkilatı tərəfindən İstifadəçiyə ayrılan unikal identifikasiya nömrəsidir.

Qeyd – GS1 sisteminin İstifadəçisinin GCP-si həmin İstifadəçini qlobal iqtisadi məkanda tanıdır.

GLN (Global Location Number) - Qlobal Yerləşmə Nömrəsi : GS1 sisteminin qeydiyyatdan keçmiş İstifadəçisini, onun struktur bölmələrini və ya obyektləri və istifadəçi identifikasiyası haqqında müəyyən bir məlumat dəstini unikal şəkildə müəyyənləşdirmək üçün hazırlanmış 13 rəqəmli identifikasiya nömrəsidir.

GTIN (Global Trade Item Number) - Əmtəənin Qlobal İdentifikasiya nömrəsi : GS1 sisteminin standartları ilə müəyyən edilmiş qaydalara uyğun olaraq əmtəə vahidinə verilən, onu unikallaşdıran qlobal identifikasiya nömrəsidir.

GTIN-13: GS1 sisteminin istifadəçisinin GCP-sindən, əmtəə vahidinin nömrəsindən və nəzarət rəqəmindən ibarət olan əmtəənin vahidinin tək və ya qrup qablaşdırmada 13 rəqəmli qlobal identifikasiya nömrəsidir.

GTIN-8: Milli təşkilatın GS1 prefiksindən, əmtəə vahidinin nömrəsindən və nəzarət rəqəmindən ibarət olan əmtəə vahidinin tək və ya qrup qablaşdırmada 8 rəqəmli qlobal identifikasiya nömrəsidir.

LAYİHƏ

GTIN-14: GS1 sistemində qablaşdırma seçimini xarakterizə edən göstərici rəqəmindən, İstifadəçinin GCP-sindən, əmtəə vahidinin nömrəsindən və nəzarət rəqəmindən ibarət olan nəqliyyat paketindəki əmtəə vahidinin 14 rəqəmli qlobal identifikasiya nömrəsidir.

Ştrixkodlaşdırma: İnformasiya elementlərinin müəyyən formalı, ölçülü, rəngli, əksetdirmə qabiliyyətli istiqamətləndirilmiş çap və formalizasiya olunmuş kombinasiyalar şəklində müəyyən qaydalar üzrə təqdim olunmasına əsaslanmış və onun sonradan kompüterə avtomatik daxil edilməsi üçün lazımi formaya salınmasına yönəldilmiş məlumatların avtomatlaşdırılmış identifikasiya və yığım texnologiyasıdır.

Ştrixkod: Qalınlığı və araları müxtəlif olan paralel ştrixlər yığımının köməyi ilə işarələri təqdim edən və köndələn skanerləşdirmə yolu ilə optik oxunan koddur.

Ştrixkodun simvolikası: Məlumatların ştrixkod formasında təqdim olunmasının standard vasitələridir.

Simvolikanın spesifikasiyası: Simvolikanın qurulması qaydalarının formalizasiya olunmuş təqdimatıdır.

Ştrix (Ştrixkodun simvolu): Ştrixkodun simvolunda çap olunmuş tünd zolaqdır.

Verifikasiya: Müəyyən edilmiş müddətdə ştrixkod simvolunun tələblərə uyğunluğunu ölçülmək üçün texniki prosedur.

LAYİHƏ

4. ÜMUMİ QAYDALAR

4.1. Avtomatik identifikasiyanın məqsədi xüsusi texniki qurğular vasitəsilə əvvəlcədən verilmiş əlamətlərə əsasən obyektlərin birmənalı tanınmasını təmin etməkdir.

Ştrixli idenifikasiya obyekti avtomatik identifikasiyaya aid olan istənilən predmet, həmçinin topdan və pərakəndə ticarət şəbəkələrində realizə olunan mallar, xidmətlər, təhcizat vahidləri, nəqliyyat vahidləri və s.

Avtomatik identifikasiya obyektlərində ştrixkodun mövcudluğu əl əməyinin, bu obyektlər haqqındakı informasiyanın müxtəlif təyinatlı avtomatlaşdırılmış sistemlərə daxil olunması vaxtının azalmasını və daxil olunan informasiyanın etibarlılığını təmin edir.

Rəqəmlər, hərflər və xüsusi işarələr kodlaşdırma obyektinin informasiya simvollarıdır.

4.2. Ştrixkodların formalaşması, işarələnməsi və oxunması üçün universal və xüsusi texniki vasitələrdən istifadə olunur. Universal texniki vasitələrə fərdi kompüterlər, çap vasitələri, ümumi təyinatlı skanerlər aiddir.

Xüsusi texniki vasitələrə ştrixkodların sonradan poliqrafiya üsulları ilə vurulması üçün maket hazırlanma proqramları; xüsusi çapetmə qurğuları-termo/termotransfer printerləri; ştrixkodları oxuyan vasitələr: müxtəlif simvolikalı ştrixkod skanerləri, məlumat yığımı

mobil terminalları, ştrixkodların çap keyfiyyətini yoxlayan qurğular-verfikatorlar və s. aiddir.

4.3. Ştrixkodlaşmanın tətbiq sahələri müxtəlifdir. İnsan fəaliyyətinin hər bir konkret sahəsində birmənalı avtomatik identifikasiya zərurəti olan hər hansı obyekt ştrixkodlaşdırma predmetidir.

4.4. İstifadəçilər ştrixkod simvolikasının oxunması üçün zəruri olan avanlıqların seçimini hər konkret sahədə identifikasiya obyektlərinin və kodların istifadə xüsusiyyətlərini nəzərə almaqla həyata keçirməlidirlər.

QEYD: Ştrixkodun ən geniş yayılmış simvolikaları aşağıdakılıadır: əmtəə nömrələnməsi üçün əsas götürülməsi tövsiyyə olunan əmtəə kodları- GTIN-8, GTIN-13, GTIN-14, GS1-128, GS1 DataMatrix, GS1 QR code, GS1 DataBar və daxili kodlar.

4.5. İstifadə sahəsindən və görünüşündən asılı olmayaraq ştrixkodun vizual təsviri aşağıdakı tələblərə cavab verməlidir:

- ştrixkodun təsviri yalnız iki parlaqlıq səviyyəsinə kontrastlığın malik olan ştrixlərdən və aralıqlardan ibarət olmalıdır;
- ştrixkodun təsviri kodun dəqiq oxunmasını təmin edən kontrastlığa, stabilləşmə zonasına, keyfiyyətli daşıyıcıya malik olmalıdır.

4.6. Ştrixkod vasitəsi ilə əmtəənin avtomatik identifikasiyasını beynəlxalq GS1 əmtəə nömrələməsi sistemi təmin edir.

5. GS1 SİSTEMİNDƏ ƏMTƏƏ NÖMRƏLƏRİNİN FORMALAŞMASI, AYRILMASI, QEYDİYYATI, TƏTBİQİ VƏ İSTİFADƏZARƏT QAYDALARI

5.1. GS1 sistemində əmtəə nömrələrinin formalaşması Qaydaları

5.1.1. GS1 sisteminin işlənib hazırlanmasını, onun qaydalarının razılaşdırılmasını, praktiki reallaşdırılması və metodik-təşkilatı dəstəyini GS1 Assosiasiyası həyata keçirir. GS1 sistemi aşağıdakı prinsiplərə əsaslanır:

- avtomatik identifikasiyaya aid olan hər obyektə strukturu vahid GS1 tələblərinə cavab verən GTIN verilir;
- GTIN ştrixlər və aralıqlar vasitəsilə ştrixkodun standart simvollarının biri ilə ifadə edilir və obyektin üzərinə vurulur;
- ştrixkod skaner vasitəsilə avtomatik olaraq təyin edilir;
- GTIN avtomatlaşdırılmış sistemdə əmtəənin hərəkətini qeydə almaq məsədilə istifadə olunur.

5.1.2. GS1 sistemindəki GTIN obyektin identifikasiyasını, kodlaşdırılmasını və ya xarakteristikasını göstərən rəqəmsal identifikatordur.

LAYİHƏ

5.1.3. GS1 sistemində GTIN-in ayrılması ümumi halda aşağıdakı ardıcıllıqda aparılır:

- malların əmtəə nömrələnməsini ölkəsinin ərazisində həyata keçirmək məqsədini bəyan edən milli nömrələnmə təşkilatına GS1 Prefiksinin verilməsi;
- GS1 sisteminin istifadəçisinə - həmin ölkənin mal istehsalçısına qeydiyyat nömrəsinin – GCP-nin verilməsi;
- GS1 sisteminin istifadəçisinə - müəssisədə kodlaşdırma obyektinə əmtəə nömrəsinin-GTIN-in verilməsi.

5.1.4. Milli təşkilata Prefiksin verilməsini bu ölkənin təmsilçilərinin-milli əmtəə nömrələmə təşkilatının təsisçilərinin müraciəti əsasında GS1 Assosiasiyası təyin edir. Təsisçi qismində həmin ölkədə fəaliyyət göstərən ticarət və sənaye təşkilatlarının nümayəndələri olmalıdırlar. GS1 üzvlərinin ölkə prefiksləri "A" əlavəsində göstərilmişdir.

5.1.5. Milli əmtəə nömrələmə təşkilatı müəssisə və ya fərdi sahibkarlara, onların GS1 sistemi istifadəçiləri olmaq haqqındakı müraciətlərinə əsasən GCP verir.

QEYD: GCP müəssisə və ya fərdi sahibkarı birbaşa məhsul istehsalçısı kimi, həm də öz əmtəə nişanı altında məhsulu realizə edən təşkilat kimi də əhatələşdirə bilər.

5.1.6. GCP alan müəssisə və ya fərdi sahibkar milli nömrələmə təşkilatına ştrixkodlaşdırılacaq məhsullar haqqında məlumatı təqdim etməlidir. Milli nömrələmə təşkilatı bu məlumat əsasında məhsullara GTIN ayırır və onları qeydiyyata alır.

5.1.7. Müəyyən olunmuş qaydalara ayrılan 8-, 13-, 14- dərəcəli əmtəə nömrələri məhsullara uyğun olaraq "GTIN-8", "GTIN-13", "GTIN-14" ştrixkodlar kimi tətbiq edilməlidir.

5.1.8. GS1 qaydalarına uyğun olaraq 020-029, 040-049, 050-059, 200-299, 977, 978, 980, 981, 982, 990-999 nömrələri ilə başlayan prefikslər istisna hal təşkil edir.

5.1.9. "GTIN-13", "GTIN-14" kodlarındakı əmtəə nömrəsinin tərkibində GS1 istifadəçisini qeydiyyata alan milli təşkilatın prefiksi və əmtəənin nomrəsi olmalıdır. Bu kod əmtəə nömrəsinin 13-dərəcəli təsviri onu əmtəə və yaxud məhsulun üzərində yerləşdirməyə imkan vermədiyi hallarda xüsusi qaydada təqdim olunur. Məhsulların 8-dərəcəli əmtəə nömrələrinin – "GTIN-8" qeydiyyatı GS1 tələblərinə uyğun olaraq milli əmtəə nömrələmə təşkilatının xüsusi Depozitariyasında aparılır.

5.2. GS1 sistemində əmtəə nömrələrinin ayrılma Qaydaları

5.2.1. Milli nömrələmə təşkilatı GS1 Baş Spesifikasiyasına uyğun olaraq İstifadəçilərin əmtəə məhsullarına GTIN-8, GTIN-13, GTIN-14 kodlarını ayırır.

5.2.2. İstifadəçi GS1 sistemində əmtəə nömrələri ayrılacaq məhsulların siyahısını Milli nömrələmə təşkilatına təqdim etməlidir. Milli nömrələmə təşkilatı məhsullara əmtəə

LAYİHƏ

nömrəsi ayırır, əmtəələrin Depozitariyasına daxil edir və onları elektron daşıyıcılarda saxlayır.

5.2.3. GS1 sisteminin İstifadəçiləri aşağıdakılara görə məsuliyyət daşıyır:

- istehsalçı və məhsulları haqqındakı məlumatın düzgünlüyünə görə;
- əmtəə məhsuluna ayrılmış GTIN-in etiketlərə düzgün vurulmasına görə;
- əmtəə məhsulundakı ştrixkod simvolunun təsvirinin keyfiyyətinə görə;
- məhsullarına ayrılmış GTIN-in düzgün istifadəsinə görə.

5.2.4. GS1 sisteminə daxil olmayan, yalnız həmin müəssisənin - təsərrüfat subyektinin, həmçinin ticarət müəssisəsinin daxilində istifadə olunan başqa ştrixkodların istifadə qaydaları həmin müəssisənin daxili normativ sənədləri ilə müəyyən olunmalıdır.

5.3. GS1 sistemində əmtəə nömrələrinin qeydiyyatı Qaydaları

5.3.1. Azərbaycan Respublikasında məhsullarını GTIN ştrix kod simvolları ilə kodlaşdıran və markalayan müəssisələrin və fərdi sahibkarların qeydiyyatını beynəlxalq GS1 Assosasiyasının tam hüquqlu üzvü olan **GS1 Azərbaycan** Milli nömrələmə təşkilatı həyata keçirir.

5.3.2. Azərbaycan Respublikasının ərazisində olan müəssisələr - təssərrüfat subyektləri məhsulları üçün əmtəə nömrələrindən və müvafiq ştrixkodlardan istifadə hüququnu almaq üçün öz istəkləri barədə Milli nömrələmə təşkilatına müraciət etməlidirlər.

Müraciət forması Milli nömrələmə təşkilatı tərəfindən müəyyən edilir.

5.3.3. Müraciət əsasında Milli nömrələmə təşkilatı müəssisəyə - təsərrüfat subyektinə qeydiyyat nömrəsi və müvafiq **Şəhadətnamə** verir.

5.3.4. Müəssisə - təsərrüfat subyekti **Şəhadətnamənin** qüvvədə olduğu müddət ərzində ayrılan GCP və GLN-dən istifadə etmək hüququna malikdir və səbəbindən asılı olmayaraq sistemdən çıxdıqda bu hüququ itirir.

5.3.5. Milli nömrələmə təşkilatı tərəfindən müəssisə - təsərrüfat subyektinə və onun bölmələrinə GLN ayrılır.

5.4. GS1 sistemində əmtəə nömrələrinə nəzarət Qaydaları

5.4.1. GTIN-lərin və ştrixkod simvollarının istifadəsinə nəzarət

5.4.2. Əmtəə məhsullarının markalanması üçün istifadə olunan GTIN-in nəzarəti bu standarta və başqa normativ sənədlərə uyğun olaraq Milli nömrələmə təşkilatı və Azərbaycanın başqa səlahiyyətli orqanları həyata keçirir.

5.4.2.1. Əmtəə nömrələrinin istifadəsinin nəzarətinə daxildir:

- GS1 sisteminin İstifadəçisinin ona GS1 sistemində ayrılan GCP və GLN haqqındakı Şəhadətnamənin mövcudluğunun və onun qüvvədə olma müddətinin, həmçinin Milli

LAYİHƏ

nömrələmə təşkilatı əmtəə nömrələmə Depozitariyasından istehsalçının məhsullarının GTIN-in göstərilməsi şərtiylə verilmiş Çıxarışın yoxlanması;

- məhsula vurulmuş GTIN-in Depozitariyadan verilmiş Çıxarışa uyğunluğunun yoxlanması.

5.4.2.2. Müəssisələrin bu standartın tələblərinə əməl etməsi Milli nömrələmə təşkilatının və Azərbaycan Respublikasının aidiyyatı orqanlarının keçirdiyi monitorinqlərlə müəyyən edilir.

5.4.2. GTIN –nin ləğvi

5.4.2.1.GTIN-nin ləğv olunması GS1 sisteminin İstifadəçisinin müfaviq müraciəti əsasında və ya müqavilə öhdəliklərinin yerinə yetirilməməsinə görə Milli nömrələmə təşkilatı tərəfindən həyata keçirilir.

5.4.2.2. Əmtəə məhsullarının kodlaşdırma və markalanma qaydalarının pozulması haqqındakı məlumatdan sonra Milli nömrələmə təşkilatı pozuntuların aradan qaldırılma müddətini müəyyən edir. Müəyyən olunmuş müddətdə pozuntular aradan qaldırılmadıqda Milli nömrələmə təşkilatı verilmiş GTIN-i ləğv edir.

5.4.2.3. Müəssisə - təsərrüfat subyekti, hüquqi, yenidənqurma zamanı yeni rekvizitlər alarsa və hüquqi ünvanlarını dəyişirsə 1 (bir) ay ərzində Milli nömrələmə təşkilatına dəyişikliklər haqqında məlumat verməlidir.

5.4.2.4. GTIN-nin tətbiq edilməsi və istifadəsində bu standartın tələblərinə əməl olunmamasına görə məsuliyyət və həmçinin GTIN –dən icazəsiz istifadə qüvvədə olan qanunvericiliyə müvafiq olaraq tənzimlənir.

5.5. GS1 sistemində əmtəə nömrələrinin tətbiqi Qaydaları

5.5.1.Ştrixkodların vurulma keyfiyyəti

5.5.1.1. Ştrixkodların vurulma keyfiyyətinə görə tam məsuliyyəti GS1 sisteminin İstifadəçisi daşıyır.

5.5.1.2. Ştrixkodun vurulma keyfiyyəti aşağıdakı faktorlarla müəyyən edilir:

- ştrixkodun maketinin orijinalının hazırlanma keyfiyyəti ilə;
- ştrixkodun vurulmasında istifadə olunan mətbəə və ya xüsusi çap qurğusunun keyfiyyət göstəriciləri və imkanları ilə;
- materialların keyfiyyəti ilə (rəng vasitələri, qablaşdırma kağızları, yarlıklar, etiketlər və s.);
- məhsulların daşınması və (və ya) saxlanması ilə.

5.5.1.3. Ştrixkodun məhsula vurulma keyfiyyətinə nəzarəti ştrixkodun oxunmasından istifadə edən təşkilatlar həyata keçirir.

LAYİHƏ

5.5.2. Ştrixkodun çapı (vurulması)

5.5.2.1 GS1 sistemində, bir qayda olaraq, ştrixkod istehsal mərhələsində vurulur. Əgər bu istehsal mərhələsində mümkün və ya məqsədəuyğun deyilsə, onda ştrixkodu realizə zamanı da vurmaq olar.

5.5.2.2. Ştrixkodun əsas vurulma üsullarına aiddir:

- ştrixkodların və qablaşdırma, yarlık və etiketlərin tərtib edilmə elementlərinin birgə əksini ifadə edən çap matrisindən və maketindən istifadə etməklə poliqrafik çap;
- məhsula sonradan vurulan yapışqan əsaslı etiketlərdə (yarlıklarda) xüsusi printerlər vasitəilə ştrixkodların çapı;
- qablaşdırma vasitələrində və etiketlərdə poliqrafik üsulla əvvəlcədən ayrılmış təmiz hissələrdə xüsusi printerlərlə ştrixkodun sonradan çapı.

5.5.2.3. Məhsullara ştrixkodların vurulma üsulları məhsulun növü, kod simvolunu daşıyıcısının nəzərdə tutulan xüsusiyyətləri, mövcud avadanlıqlar, maliyyə imkanları və s. kimi faktorlardan asılıdır.

5.5.2.4. Ştrixkod məhsulun üzərində elə yerləşməlidir ki, skaner ştrixkodun bütün zolaqlarını oxuya bilsin.

5.5.2.5. Ştrixkod simvolu identifikasiya obyektinin üzərində kifayət qədər yer olan hissədə yerləşdirilməlidir. Ştrixkod simvolunun identifikasiya obyektinin üzərində yerləşdirilməsi GS1 Baş Spesifikasiyasında təyin olunub.

EAN-8 və EAN-13 ştrixkod simvollarının nominal ölçülərlə təsviri **"B"** əlavəsində verilmişdir.

6. Ştrixkod simvolunun ümumi konstruksiyası

6.1. Ştrixkod simvolunun hündürlüyü onun təyinatına və hesablanma üsullarının təyinatına görə müəyyən olunmalıdır.

Ştrixkod simvolunun tövsiyyə olunan hündürlüyü onun uzunluğunun 15%-dən az olmamalıdır.

6.2. Ştrixkod simolunun ensiz elementin eni verilmiş kodun oxunmasında istifadə olunan skanerin imkanı (skaner və oxunan obyekt arasındakı məsafə və s.) və tətbiq olunma qaydaları ilə müəyyən olunmalıdır.

6.3. Ştrixkod simvolunun həndəsi ölçüləri, ştrixkod elementlərinin ölçüləri və onların mümkün sapması GS1 Baş Spesifikasiyanin tələblərinə uyğun olmalıdır.

EAN-8 və EAN-13 ştrixkodlarının standart-nominal ölçüləri **"C"** əlavəsində verilmişdir.

LAYİHƏ

Əlavə A

GS1 üzvlərinin ölkə prefikslərinin 01.05.2021 tarixinə olan siyahısı

GS1 prefiksləri	GS1 üzvü olan milli təşkilatın adı	Ölkələr
000-019	GS1 US	ABŞ
020-029	Restricted distribution (MO defined)	Daxili nömrələmə
030-039	GS1 US	ABŞ
040-049	Restricted distribution (MO defined)	Daxili nömrələmə
050-059	GS1 US	ABŞ
060-139	GS1 US	ABŞ
200-299	Restricted distribution (MO defined)	Daxili nömrələmə
300-379	GS1 France	Fransa
380	GS1 Bulgaria	Bolqarıstan
383	GS1 Slovenija	Sloveniya
385	GS1 Croatia	Xorvatiya
387	GS1 (BIH) Bosnia-Herzegovina	Bosniya-Hersoqovina
389	GS1 Montenegro	Monteneqro
400-440	GS1 Germany	Almaniya
450-459 & 490-499	GS1 Japan	Yaponiya
460-469	GS1 Russia	Rusiya
470	GS1 Kyrgyzstan	Qırğızıstan
471	GS1 Chinese Taipei	Tayvan
474	GS1 Estonia	Estoniya
475	GS1 Latvia	Latviya
476	GS1 Azerbaijan	Azərbaycan
477	GS1 Lithuania	Litva
478	GS1 Uzbekistan	Özbəkistan
479	GS1 Sri Lanka	Şri-Lanka
480	GS1 Philippines	Filippin
481	GS1 Belarus	Belarus
482	GS1 Ukraine	Ukrayna
483	GS1 Turkmenistan	Turkmenistan
484	GS1 Moldova	Moldova
485	GS1 Armenia	Ermənistan
486	GS1 Georgia	Gürcüstan
487	GS1 Kazakhstan	Qazaxıstan
488	GS1 Tacikistan	Tacikistan
489	GS1 Hong Kong, China	Honq-Konq

LAYİHƏ

500-509	GS1 UK	B.Britaniya
520-521	GS1 Association Greece	GS1 Baş ofis
528	GS1 Lebanon	Livan
529	GS1 Cyprus	Kipr
530	GS1 Albaniya	Albaniya
531	GS1 MAC (FYR Macedonia)	Makedoniya
535	GS1 Malta	Malta
539	GS1 Ireland	İrlandiya
540-549	GS1 Belgium & Luxembourg	Belçika & Lüksemburq
560	GS1 Portugal	Portuqaliya
569	GS1 Iceland	İslandiya
570-579	GS1 Denmark	Danimarka
590	GS1 Poland	Polşa
594	GS1 Romania	Rumıniya
599	GS1 Hungary	Macarıstan
600-601	GS1 South Africa	Cənubi Afrika
603	GS1 Ghana	Qana
604	GS1 Senegal	Seneqal
608	GS1 Bahrain	Bəhreyn
609	GS1 Mauritius	Mavrikiy
611	GS1 Morocco	Mərakeş
613	GS1 Algeria	Əlcəzair
615	GS1 Nigeria	Nigeriya
616	GS1 Keniya	Keniya
618	GS1 Ivory Coast	Kot de İvuare
619	GS1 Tunisia	Tunis
620	GS1 Tanzania	Tanzania
621	GS1 Syria	Suriya
622	GS1 Egypt	Misir
624	GS1 Libya	Liviya
625	GS1 Jordan	İordaniya
626	GS1 Iran	İran
627	GS1 Kuwait	Küveyt
628	GS1 Saudi Arabia	Səudiyyə Ərəbistanı
629	GS1 Emirates	Birləşmiş Ərəb Əmirlikləri
631	GS1 Namibia	Namibiya Respublikası
640-649	GS1 Finland	Finlandiya
690-699	GS1 China	Çin
700-709	GS1 Norway	Norveç
729	GS1 Israel	İsrail
730-739	GS1 Sweden	İsveç
740	GS1 Guatemala	Qvatemala
741	GS1 El Salvador	Salvador

LAYİHƏ

742	GS1 Honduras	Honduras
743	GS1 Nicaragua	Nikaraqua
744	GS1 Costa Rica	Kosta Rika
745	GS1 Panama	Panama
746	GS1 Republica Dominicana	Dominikan Respublikası
750	GS1 Mexico	Meksika
754-755	GS1 Canada	Kanada
759	GS1 Venezuela	Venesuela
760-769	GS1 Schweiz, Suisse, Svizzera	İsveçrə
770-771	GS1 Colombia	Kolumbiya
773	GS1 Uruguay	Uruqvay
775	GS1 Peru	Peru
777	GS1 Bolivia	Boliviya
778-779	GS1 Argentina	Argentina
780	GS1 Chile	Çili
784	GS1 Paraguay	Paraqvay
786	GS1 Ecuador	Ekvador
789-790	GS1 Brasil	Braziliya
800-839	GS1 Italy	İtaliya
840-849	GS1 Spain	İspaniya
850	GS1 Cuba	Kuba
858	GS1 Slovakiya	Slovakiya
859	GS1 Czech	Çexiya
860	GS1 Serbia	Serbiya
865	GS1 Mongolia	Monqolustan
867	GS1 North Korea	Şimali Koreya
868-869	GS1 Turkey	Türkiyə
870-879	GS1 Netherlands	Niderland
880	GS1 South Korea	Cənubi Koreya
884	GS1 Cambodia	Kamboca
885	GS1 Thailand	Tailand
888	GS1 Singapore	Sinqapur
890	GS1 India	Hindistan
893	GS1 Vietnam	Vyetnam
896	GS1 Pakistan	Pakistan
899	GS1 Indonesia	İndoneziya
900-919	GS1 Austria	Avstriya
930-939	GS1 Australia	Avstraliya
940-949	GS1 New Zealand	Yeni Zellandiya
950	GS1 Global Office	GS1 Baş ofis
951	Global Office	GS1 Baş ofis
955	GS1 Malayziya	Malayziya
958	GS1 Macau	Makau

LAYİHƏ

960-961	GS1 UK for GTIN-8	GS1 UK GTIN-8 kodları üçün
960-969	Global Office for GTIN-8	GS1 Baş ofis GTIN-8 kodları üçün
977	Serial publications (ISSN)	Dövrü nəşrlər (İSSN)
978-979	Bookland (ISBN)	Kitablar (İSBN)
980	Refund receipts	Qəbzlər
981-984	Common Currency Coupons	Valyuta kuponları
990-999	Coupons	Kuponlar

LAYİHƏ

Əlavə B

(tövsiyə edilən)

Nominal ölçülərlə simvolların təsviri



EAN-13 simvolu

LAYİHƏ



EAN-8 simvolu

LAYİHƏ

Əlavə C
EAN-8 və EAN-13 ştrixkodlarının nominal ölçüləri

Böyüdülmə əmsalı	Modulun eni [mm]	EAN-13 simvolların ölçüləri [mm]		EAN-8 simvolunun ölçüləri [mm]	
		Uzunluq	Hündürlük	Uzunluq	Hündürlük
0,8	0,264	29,83	20,73	21,38	17,05
0,85	0,281	31,7	22,02	22,72	18,11
0,9	0,297	33,56	23,32	24,06	19,18
0,95	0,313	35,43	24,61	25,39	20,24
1	0,33	37,29	25,91	26,[illegible]	21,31
1,05	0,346	39,15	27,21	2[illegible],07	22,38
1,1	0,363	41,02	28,[illegible]	29,4	23,44
1,15	0,379	42,88	29,8	[illegible],74	24,51
1,2	0,396	44,75	1,0[illegible]	32,08	25,57
1,25	0,412	46,61	32,[illegible]9	33,41	26,64
1,3	0,429	48,48	[illegible],68	34,75	27,7
1,35	0,445	[illegible],34	34,[illegible]8	36,09	28,77
1,4	0,462	52,21	36,27	37,42	29,83
1,45	0,478	[illegible],07	37,57	38,76	30,9
1,5	0,495	[illegible]	38,87	40,1	31,97
1,55	0,511	57,8	40,16	41,43	33,03
1,6	[illegible]528	[illegible]9,66	41,46	42,77	34,1
1,65	0,5[illegible]	61,53	42,75	44,1	35,16
1,7	0,561	63,39	44,05	45,44	36,23
1,75	0,577	65,26	45,34	46,78	37,29
1,8	0,594	67,12	46,64	48,11	38,36
1,85	0,61	68,99	47,93	49,45	39,42
1,9	0,627	70,85	49,23	50,79	40,49
1,95	0,643	72,72	50,52	52,12	41,55
2	0,66	74,58	51,82	53,46	42,62

LAYİHƏ

Əsas sözlər: GS1, GTIN, GLN, GCP, ştrixkod, ştrixkodlaşdırma, avtomatik identifikasiya

Bu standart "GS1 Azerbaijan" MMC-nin mütəxəssisləri tərəfindən hazırlanmışdır.

Məsul icraçılar:

"GS1 Azerbaijan" MMC-nin
Baş direktoru
_____ V.L.Əliyev
«____» _____ 2021

"GS1 Azerbaijan" MMC-nin
İcraçı direktoru
_____ S.A. liyeva
«____» _____ 2021

"GS1 Azerbaijan" MMC-nin
GS1 Azerbaijan Depozitariya müdiri
_____ G.Ə. Rəsulova
«____» _____ 2021

LAYİHƏ